

FAİQ QİSMƏTOĞLU
faiq_qismetoglu@box.az

# DAĞ HAVASI...

... Deyirlər ki, dağ adamları çox saf, çox təmiz, çox dupduru olurlar. Və bu deyimdə çox böyük həqiqət var: çünki mənim özüm də dəfələrlə şahidi olmuşam ki, dağlıq rayonlarda yaşayan insanlar daha çox səmimi və təmiz adamdılar. Bu heç də başqalarının xətrinə dəyməsin. Mən nə Laçından, nə Kəlbəcərdən, nə də Gədəbəydən keyfiyyətsiz adam görmüşəm. Bəlkə orad da sözünün sahibi olmayan, kiməsə kəf gələn adamlar var. Amma mənə rast gələnlərin hamısı bulaq suyu kimi dupdurudular...

... Və bulaq suyu kimi dupduru adamlardan biri də 10-dən çox yaxından tanıdığım, çox böyük insan, çox böyük ziyalı və çox böyük həkim Köçəri Əkbər oğlu İsmayılovdur. O Köçəri həkim ki, öz sadəliyi, səmimiyyəti və insani dəyərlərilə həmişə başqalarından seçilib. Dağ vüqarlı, çinar əzəmətli bu insan Laçın rayonundandı. Laçında necə təmiz, dupduru olubsa, Bakıda da həmin cizgilərini və xarakterini qoruyub saxlamağı bacarıb. Və məni Köçəri həkimlə yaxın dostum və qardaşım Daşdəmir Əjdəroğlu ("Azərbaycan" qəzetinin məsul katibinin müavini - F.Q) tanış eləyib.

... Həyat yoldaşım çox möhkəm xəstələnmişdi. O həkim yox idi ki, yanına aparmayım. Heç bir həkim onun dərdinə əlac tapa bilmərdi. Axırda Köçəri həkimin yanına getdik, o müayinə elədi və müalicə yazdı. Təsəvvür edin ki, xanımım bütün günü səhərdən axşama qədər öskürürdü. Düz bir il yarım idi ki, bronxları tutulmuşdu və xəstəliyi daha şiddətlənirdi. Köçəri həkimin iki kurs müalicəsindən sonra o yavaş-yavaş özünə gəldi və axırıncı kurs başa çatandan sonra həkimin yanına gedib yenidən müayinədən keçdi. Köçəri həkim onu müayinə edəndən sonra soyuqdəymənin tamamilə çəkildiyini dedi. Düz 5 ildir ki, xanımım şükürlər olsun tay xəstələnmir.

Hər həkimin işi deyil ki, xəstəyə vicdanla yanaşsın. İndi həkim çoxdur. Amma gəlin onunla razılaşaq ki, vicdanlı həkimlər o qədər də çox deyillər. Bir həkimin yanına gedirsən, resepti götürüb 6-7 dərman yazır. Amma Köçəri həkim cəmi iki ucuz dərmanla mənim həyat yoldaşımı həyata qaytardı.

Bir dəfə də qardaşım möhkəm öskürürdü. Dedim ki, Köçəri həkimin yanına get! O da Köçəri həkimin yanına gedib müayinə olunur və Köçəri həkim bildirir ki, sənin ciyərində heç bir soyuqlama yoxdur. Get exo- kardioqrama elətdir. Kardioqrama zamanı aşkar olunur ki, qardaşımın ürəyində çox böyük qüsur var. Ürəyin gücü 15 faizə enib. Qardaşım təcili Mərkəzi Klinik Xəstəxanada anju olundu. Onda da məlum oldu ki, onun damarlarının hamısı 100 faiz tutulub. Sadəcə olaraq, Allah-Təala əlavə bir damar yaradıb, o damar vasitəsilə yaşayıb. Bakıda heç bir həkim və heç bir kardio-cərrah ürək əməliyyatını boynuna götürmədi. Hətta dedilər ki, təyyarəyə minsə öləcək! Biz risk edib onu İstanbula apardıq, dünya şöhrətli türk kardio-cərrah, doktor, professor Mehmet Saleh Bilal açıq ürək əməliyyatı apardı və qardaşımı ölümün pəncəsindən aldı. Göydə Allah, yerdə türk həkimi, Bakıda isə Köçəri İsmayılov qardaşımı həyata qaytardılar. Yəni onun düzgün müayinəsi və məsləhəti qardaşımın həyatını xilas elədi.

Qohum-əqrəbada kimsə xəstələnəndə o dəqiqə yadıma Köçəri həkim düşür. Çünki Köçəri həkim dünya malında gözü olmayan çox istedadlı, çox savadlı, çox böyük insandı. Onun böyüklüyü odur ki, hər bir xəstəyə öz doğması kimi baxır və ondan da nəsə ummur. Bu cür həkimlər barmaqla sayıla bilər. Və mən də həmişə onun yanına imkansız, kimsəsiz adamları göndərmişəm. Heç elə adamlar var tanımamışam. Görmüşəm ki, öskürəyi kəsmir, Köçəri həkimin ünvanını vermişəm. Həmin adam da gəlib məni axtarıb, tapıb, minnətdarlıq edib ki, Allah köməyin olsun, getdim o həkimin yanına o da məni sağaltdı.

Mənim çox dostlarım var. Amma onların arasında həkim dostlarımı daha çox istəyirəm. Çünki həkim dostlarım həddindən artıq ziyalı, intellektual və səmimi adamlardılar. Tibb elmləri doktoru Müşfiq Həsənov, tibb elmləri doktoru, kardiocərrah Firdovsi İbrahimov, tibb elmləri namizədi, kardoioloq Rafiq Yusifli, tibb elmləri namizədi Köçəri İsmayılov, tibb elmləri üzrə fəlsəfə doktoru Aynur xanım və ən nəhayət, gözəl həkim, nevropotoloq İdrak Həsənov! Bunlar gözəl həkim olmaqla yanaşı, böyük də insandılar. Bunlar öz xalqını, millətini sevən həkimlərdilər. Və bunlar hər şeydən öncə xəstəni sağaldıb həyata qaytarmaq haqqında düşünürlər.

Deyirlər ki, həkimlər Allahın Yer üzünə göndərdiyi mələklərdi. Amma bu sözləri də hər həkim haqqında demək düzgün deyil. Çünki elin gözü tərəzidir. Lap biz desək ki, filankəs həkim mələkdir, onu tanıyan xəstələr bizim dediyimizin əksini söyləyəcəklər: və deyəcəklər ki, gözünün içinə qədər yalan danışırsan! Axı biz onu yaxşı tanıyırıq. Əgər kimsə həkimini yaxşı tanıyırsa, heç vaxt onu aldatmaq, yola verməк mümkün deyil.

Bu yaxınlarda özümü narahat hiss elədim. Gördüm ki, öskürəyim kəsmir. Köçəri həkimə zəng vurdum, dedi ki, yerimdə olacam, istənilən vaxt gəl! Mən də səhər saatlarında onun işlədiyi 1 saylı şəhər Klinik Xəstəxanasının birinci korpusuna getdim. 3-cü mərtəbəyə qalxdım və əyləşdiyi otağın qapısını döydüm. Düz 5 il idi ki, görüşmürdük. Görən kimi tanıdı və ilk sözü də bu oldu ki, nə yaxşı özünü qoruyub saxlamısan, əvvəlki kimi kök deyilsən. Təbii ki, bizim dərdimiz eyni olduğuna görə, bir-birimizi daha yaxşı anlayırıq; Laçın da işğal altındadı, Füzuli də! Amma gördüm ki, bu 5 ildə Köçəri həkim bir az da qocalıb, bir az da vətən dərdi onu sarsıdıb. Yenə Laçından danışdıq, Füzulidən söhbət açdıq. Dedik ki, ora qayıtsaq, dərdimiz olmaz. Söhbət eləyə-eləyə məni müayinə elədi. Ürəyimin döyüntülərini, təyziqimi yoxladı. Bildirdi ki, ciyərimin sağ tərəfində soyuqlama var. Cəmi iki dərman yazdı. Və bu dərmanın da dəyəri 10 manat 50 qəpik elədi. Elə həmin gün də bu dərmanları qəbul etməyə başladım. Deyəsən, yavaş-yavaş ciyərimdəki soyuqlama çəkilməyə başlayır...

Çox səmimi, çox sadə adam, çox halal adam tanıyıram. Və o səmimi, sadə, halal adamların arasında Köçəri İsmayılovun öz yeri var. Ən azından ona görə ki, o, yanına gələn bütün xəstələrlə onların öz dilində, öz ruhunda danışmağı bacarır. Və ən azından başqa həkimlər kimi "sənin vəziyyətin ağırdır, sənin vəziyyətin qorxuludur" deyib xəstəni həyəcanlandırmır. Bəlkə də xəstənin vəziyyəti çox ağırdı ha, amma Köçəri həkim ona elə ürəkdirək verir ki, xəstə bu müalicədən sonra sağalacağına inanır.

Kim deyir ki, Azərbaycanda savadlı, istedadlı və təcrübəli həkimlər yoxdur? Bizim məmləkətdə heç Türkiyədən, İrandan, hətta Avropa ölkələrindən geri qalmayan çox savadlı və vicdanlı həkimlər var. Elə adını və soyadını yuxarıda sadaladığım o həkimlərin heç biri Avropa həkimlərindən geri qalmır. Sadəcə olaraq, ölkəmizdə bu cür həkimlərə şərait yaratmaq və onlara arxa durmaq lazımdır. Və bir də insanlar reklama, təbliğata maraq göstərib tanımadıqları həkimlərin qapısının ağzında növbəyə durmasınlar.

Viktor Hüqonun gözəl bir kəlamı var: "Vicdan insanın Allahıdır". Həkimlikdən də öncə onun vicdanı və Allaha yaxın olmağıdır. Bax, terapevt-həkim Köçəri Əkbər oğlu İsmayılov da belə Allaha yaxın, vicdanlı, böyük həkimlərdən, böyük insanlardan, böyük ziyalılardan biridir. Və Allah-Təala həmişə həkimlərin əliylə insanları ölümün pəncəsindən xilas edir. Belə həkimlərin sayı nə qədər çox olsa, bir o qədər də bu millətə, bu xalqa xeyirləri dəyə bilər. Allah onları qorusun! Allah onları qoruyacaqsa, elə onların əliylə bizi də qoruyacaq...